**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# FİZİKİ MƏDƏNİYYƏT MƏŞĞƏLƏLƏRİNDƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN DAVRANIŞ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN DİDAKTİK ƏSASLARI

İxtisas: 5801.01 - Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Fiziki tərbiyənin tədrisi metodikası)

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Kifayət Rəşid qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Mircəfər Mirməsi oğlu Həsənov**
pedaqogika üzrə fəlsəfə doktoru, professor

**Rəsmi opponentlər:** **Rüfət Lətif oğlu Hüseynzadə**
pedaqoji elmlər doktoru, professor

**Yusif Məmməd oğlu Babanlı**
pedaqogika üzrə fəlsəfə doktoru, professor

**Bəhruz Ərzuman oğlu *Cabbarlı***
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən BFD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: ________________ **Cəfər Məmməd oğlu Cəfərov**
tarix elmləri doktoru, professor

Dissertasiya Şurasının elmi katibi: ________________ **Mələk Əlislam qızı Zamanova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Elmi seminarın sədri: ________________ **Mobil İsmayıl oğlu Aslanlı**
pedaqogika elmləri doktoru, dosent

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Respublikamızın təhsil sahəsində cəmiyyətin inkişafına və artan tələbatına uyğun olaraq aparılan əsaslı dəyişikliklər Ümummilli lider Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın həyata keçirilməsi ilə başlanmışdır. Ulu öndər Heydər Əliyevin təhsilin inkişafında göstərdiyi bu kimi misilsiz xidmətləri bu gün onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən əzmlə davam etdirilir. Son illər respublikamızda məktəbəqədər təhsil sahəsində aparılan yeniliklər, məktəbəqədər təhsilin dünyanın bir sıra sivil ölkələrinin təhsili səviyyəsinə yüksəldilməsi, sürətli inkişafı istiqamətində görülən işlər Cənab Prezident İlham Əliyevin və xanımı Mehriban xanım Əliyevanın bu sahəyə göstərdikləri diqqətin bariz nümunələridir. Bu diqqətin nəticəsi olaraq hörmətli Prezidentimiz İlham Əliyevin 2007-ci il 12 aprel tarixli 2089 №-li "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər)"nı təsdiq etməsi ölkəmizdə məktəbəqədər təhsilin inkişafına köklü dəyişiklikərlə imza atdı.

Müasir inkişaf mərhələsində müstəqil respublikamız ölkəmizdə hər bir vətəndaşın təhsil almaq hüququnu qorumaqla, bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyur və təhsilin modernləşdirilməsi məqsədi ilə dünya təhsilində inteqrasiya proseslərinə daxil olur. Yeni mədəni dəyərlərin yaranması ilə müşayiət olunan bu proses təhsilin qarşısına milli dəyərləri qoruyub-saxlamaqla bəşəri dəyərlərə yiyələnmiş, öz hüquqlarını bilən və başqalarının hüquqlarına hörmət etməyi bacaran, yüksək etik normalara malik demokratik cəmiyyət qurucusunu tərbiyə etmək kimi mühüm vəzifələr qoyur ki, bunların da əsası məktəbəqədər dövrdən başlayır. Bu baxımdan Ümummilli lider H.Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası "*1992-ci il-də BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasına qoşulmuşdur"*.[1] 19 may 1998-ci ildə isə Heydər Əliyev cənabları tərəfindən

---

[1]Uşaq hüquqları-http://scfwca.gov.az/store/media/U%C5%9Faq%20h%C3%B Cqu qlar%C4%B1%20haq q%C4%B 1nda%-20BMT %20Konvensiyas% C4%B1. pdf

499-IQ nömrəli "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda uşaqların ailə və məktəbəqədər müəssisələrdə tərbiyəsi, əxlaqi dəyərlərinin, davranışının inkişafına təkan verə biləcək digər hüquqlarının tətbiqinin vacibliyi qeyd olunur. Qanunun maddələrindən birində göstərilir:

"*Maddə 11. Uşağın tərbiyə almaq hüququ.*

*- Hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ vardır.*

*- Uşağın tərbiyəsi ailədə, məktəbdə, məktəbəqədər və məktəbdənkənar uşaq təlim-tərbiyə müəssisələrində aparılır*".[2]

Ölkəmizin işıqlı gələcəyi olan uşaqların rifahı, hüquqlarının qorunması, onlara öz hüquqlarının öyrədilməsi, sağlamlıqları və intellektual inkişaflarının yüksək səviyyədə təmin olunması məqsədi ilə "*Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 22 dekabr 2008-ci il tarixli 103 nömrəli Sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi uşaqların vəziyyətinin yaxşılaşdırılması, uşaq hüquqlarının müdafiəsinin gücləndirilməsi baxımından yeni bir mərhələ açdı*"[3].

Uşaqların ümumi inişafına xidmət edərək, onların şəxsiyyətini formalaşdıran məktəbəqədər təhsil barədə "Təhsil haqqında" Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli 833-IIIQ nömrəli Qanunun 18-ci maddəsində göstərilir:

*"18.1. Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir"*[4].

XXI əsrin texnologiyalar əsri olmasına və həyatın bütün sahələrində inkişafın çox sürətlə getməsinə baxmayaraq, yaşadığımız

---

[2] "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2012, 15 s.

[3] Uşaq hüquqları: tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və burax. məs. Ş.Qəmbərova. Bakı: F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2015, 39 s.

[4] http://edu.gov.az/az/page/72/302

müasir dünyada ictimai və sosial münasibətlərdə gənc nəslin bir-birinə, yaxud da ətrafdakılara qarşı nümayiş etdirdikləri davranış tərzində bir çox çatışmazlıqlar müşahidə olunur. İnsanın davranış mədəniyyətinin əsasının məktəbəqədər yaş dövründən qoyulmasını nəzərə alaraq, həmin dövrdə bu məsələlərə valideyn və təbiyəçi-müəllimlərin xüsusi diqqət göstərmələri çox vacibdir. Bununla bağlı olaraq, müasir dövrdə məktəbəqədər təhsildə yeni yanaşmalar, məktəbəqədər yaşlı uşaqların intellektual, psixoloji inkişafı, potensial imkanlarının üzə çıxarılması, onların gələcək həyata hazırlanmasında böyük rol oynayan davranış mədəniyyətinin inkişafı aktual məsələ kimi qarşıya qoyulur. Uşaqların davranış mədəniyyətinə yiyələnməsi, şəxsiyyətinin formalaşdırılması müasir dövrdə məktəbəqədər təhsilin əsas vəzifələrindəndir. Bununla bağlı Prezident İlham Əliyevin "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə " 19 iyun 2017-ci il tarixli 1471 №-li Fərmanında deyilir:

"*7.2. Məktəbəqədər təhsil vasitəsilə uşaqların erkən yaş dövrlərində əqli, fiziki, yaradıcı potensialının və mədəni səviyyəsinin inkişafının, psixoloji dayanıqlığının, estetik tərbiyəsinin, sadə əmək vərdişlərinə yiyələnməsinin, ətraf aləmə, şəxsi sağlamlığın qorunmasına həssas və şüurlu münasibətinin, zəruri həyati bacarıqlara yiyələnməsinin, şəxsiyyətinin formalaşdırılmasının əsası qoyulur.*

*7.3. Məktəbəqədər təhsil uşaqların milli-mənəvi və bəşəri dəyərlər ruhunda, dövlət maraqları və azərbaycançılıq məfkurəsi əsasında tərbiyə olunmasına istiqamətləndirilir, ümumi təhsilə hazırlığını təmin edir*"[5].

Davranış mədəniyyəti cəmiyyət üçün faydalı hesab olunan yüksək davranış normalardır ki, bu normalar da hələ kiçik yaşlardan başlayaraq ailədə və məktəbəqədər təhsil müəssisələrində uşağın gündəlik həyatında vərdiş halına çevrilməlidir. Uşaqların davranış mədəniyyətinin for-malaşdırılması üzrə işin tərbiyəçi-müəllimlərlə valideynlərin qarşılıqlı əməkdaşlıq zəminində, şəxsiyyətyönümlü və nəticəyönümlü prinsipləri əsasında sistemli təşkili uğurla nəticələnir.

---

[5] http://www.president.az/articles/24248

Respublikamızda məktəbəqədər yaşlı uşaqların davranış normalarına yiyələnmələri ilə bağlı hazırlanmış müxtəlif pedaqoji ədəbiyyatlarda, vəsaitlərdə, eyni zamanda Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11 aprel 2022-ci il F-181 nömrəli əmri ilə təsdiq olunmuş "Məktəbəqədər təhsil proqramında (kurikulumda) bu məsələyə xüsusi yer verilir və davranış mədəniyyətinin məktəbəqədər yaşlı uşaqların ümumi inkişafında başlıca məqsədlərdən biri olması əhatəli şəkildə əks olunur. Bununla bağlı Azərbaycan Respub-likasının Nazirlər Kabineti tərəfindən 8 avqust 2019-cu ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı"nın 1.2. bölməsində *"1.2.2. təhsilalanların yaş, fiziki, psixoloji və fizioloji xüsusiyyətlərini nəzərə almaqla, onların fiziki inkişafının, sağlamlığı və təhlükəsizliyinin, idraki, estetik və yaradıcı, sosial-emosional inkişafının təmin olunması, sadə əmək vərdişlərinə, zəruri həyati bacarıqlara, sosial, milli və ümumbəşəri dəyərlərə yiyələnməsi*"[6] xüsusi olaraq vurğulanır.

Məktəbəqədər təhsil proqramında (kurikulum) dörd inkişaf sahəsi üzrə verilmiş məzmun standartlarının inteqrativ xarakterliliyi uşaqların davranış mədəniyyətinin formalaşdırılması və davamlı inkişafını məktəbəqədər yaş dövrləri üzrə təmin edir. Lakin tədqiqatla bağlı aparılan müşahidələr göstərdi ki, hazırda məktəbəqədər təhsil müəssisələrində fiziki mədəniyyət məşğələlərində idraki inkişaf baxımından inteqrativlik o qədər də gözlənilmir və hərəki oyunlara üstünlük verilir. Müasir dövrdə innovasiyalarla böyüyən uşaqların təfəkkürü inkişaf etdirən və daranış mədəniyyətini formalaşdıran oyunlara can atması fiziki mədəniyyət məşğələlərinin yeni texnologiyalarla, didaktik xarakterli idmanyönümlü oyunlarla təşkili tələbatını aktuallaşdırır.

Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının ilk olaraq ailədən başlaması valideynlərin qarşısında böyük məsuliyyət qoyur. Belə ki, valideynlərin ünsiyyətlərində, hərəkətlərində etik qaydalara riayət etmələri, gözəl rəftar ilə nümunə olmaları və övladlarını da eitk qaydalara əməl etməyə sövq etmələri

---

[6] "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı // 8 avqust 2019-cu il, № 351.

uşaqların davranış mədəniyyətinin formalaşmasına böyük təsir göstərir. Bu barədə həzrəti Məhəmməd (s.ə.s.) peyğəmbər hədislərində tərbiyənin valideynlər tərəfindən övlada verilən ən gözəl hədiyyə olduğunu deyir.

Respublikamızda professorlardan Z.Göyüşov, M.Muradxanov, Ə.Həşimov, A.Həsənov, Y.Kərimov, M.Həsənov, A.Abbasov, V.Xəlilov, R.Hüseynzadə, N.Kazımov, S.Axundov, Ə.Ağayev, F.Sadıqov, F.İbrahimov, ped.ü.f.d. X.Fətəliyev, dos. A.Nəzərov, dos. B.Quliyev, ped.ü.f.d. X.Səlimxanova, S.A.Şahüseynova, X.Məmmədova, Z.Vəliyeva, xarici ölkə pedaqoq və psixoloqlarından A.S.Makarenko, K.D.Uşinski, J.A.Komenski, P.F.Lesqaft, S.A.Kozlova, L.S.Vıqotskiy, F.U.Tayler və başqaları davranış mədəniyyəti məsələsinə müxtəlif aspektlərdən yanaşmış, bu sahədə dəyərli fikirlər söyləmişlər.

Respublikamızda davranış mədəniyyətinin inkişafı tədqiqatçı alimlər prof. A.M.Həsənov, dos. X.İ.Səlimxanova, dos. S.H.Həsənova, ped.ü.f.d. F.M.Allahverdiyeva, dos. L.Ş.Bağırova və s. tərəfindən tədqiqat obyektinə çevrilsə də, bu tədqiqatçılar tədqiqatlarını mövzu ilə bağlı olaraq təhsilin müxtəlif pillələri üzrə məktəblilərin əxlaq tərbiyəsinin inkişafı, fiziki tərbiyənin şagird şəxsiyyətinə təsiri, mənəvi keyfiyyətlərin psixoloji xüsusiyyətləri və s. kimi ayrı-ayrı istiqamətlərdə aparmışlar.

Azərbaycan pedaqoji ədəbiyyatında və məktəbəqədər təhsil müəssisələrində problemlə bağlı aparılan təhlillər göstərdi ki, davranış mədəniyyəti ilə bağlı müxtəlif fikirlər səslənsə də, respublikamızda məktəbəqədər yaşlı uşaqların fiziki mədəniyyət məşğələlərində davranış mədəniyyətinin formalaşdırılması ilə bağlı tərbiyəçi-müəllimlərə istiqamət verəcək əsaslı tədqiqat aparılmamış və bu mövzuda heç bir elmi-tədqiqat əsəri yazılmamışdır.

Məktəbəqədər təhsil müəssisələrində aparılan müşahidələrə əsaslanaraq deyə bilərik ki, hazırda fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların (3-6 yaş dövrü) davranış mədəniyyəti üzrə iş lazımi səviyyədə aparılmır. Bunu fiziki mədəniyyət məşğələləri zamanı uşaqların davranışında, ətrafdakılarla münasibətlərində müşahidə olunan nöqsanlar əyani şəkildə sübut edir. Bütün bu kimi nöqsanların və çatışmazlıqların əsas səbəbi mövcud metodik ədəbiy-

yatlarda problemin hələ də lazımi dərəcədə həll edilməməsidir. Bu səbəbdən problemin aktuallığı nəzərə alınaraq, "Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılması üzrə işin didaktik əsasları" mövzusunda tədqiqat aparılması məqsədəuyğun hesab olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyekti məktəbəqədər təhsil müəssisələrində fiziki mədəniyyət məşğələlərində uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının təşkili prosesidir. Tədqiqatın predmeti isə fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin innovativ didaktik əsaslarla formalaşdırılmasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin inkişafı üzrə işin didaktik əsaslarını müəyyənləşdirmək, idmanyönümlü didaktik oyunlarla innovativ məşğələ nümunələrinin hazırlanmasıdır.

Tədqiqatın vəzifələri aşağıdakılardır:

-fiziki mədəniyyət məşğələlərində uşaqlarda davranış mədəniyyətinin inkişaf etdirilməsi üzrə işin didaktik əsaslarını müəyyənləşdirmək;

- proqram və metodik vəsaitlərdə davranış mədəniyyətinin imkanlarını aşkarlamaq;

- problemlə bağlı nəzəri və pedaqoji ədəbiyyatın, məktəbəqədər təhsil proqramının təhlilini vermək;

- fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaş qrupları (3-6 yaş) üzrə problemlə bağlı vəziyyəti təhlil etmək;

- ailədə məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasına verilən tələblərə valideynlərin nə dərəcədə əməl etməsi və problemlə bağlı tərbiyəçi-müəllim-valideyn əməkdaşlığı səviyyəsini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat prosesində qarşıya qoyulmuş məqsəd və vəzifələrin reallaşdırılması məqsədi ilə fiziki mədəniyyət məşğələlərində problemin sistemli öyrənilməsi zamanı tədqiqatla bağlı nəzəri və metodik ədəbiyyatın təhlili, müşahidə, müsahibə, diaqnostik və summativ xarakterli anket sorğuları, pedaqoji eksperiment metodlarından istifadə olunmuşdur. Tədqiqata Bakı şəhəri Nizami rayonu 264,

Xətai rayonu 240, 250, 257 saylı körpələr evi-uşaq bağçaları, Bərdə şəhər 4 və 7 saylı körpələr evi-uşaq bağçaları və kənd uşaq bağçaları, Lənkəran şəhər 12, 17 saylı körpələr evi-uşaq bağçaları və kənd uşaq bağçaları və Horadiz şəhər 2 saylı körpələr evi-uşaq bağçaları cəlb edilmiş və sorğular keçirilmişdir.

Pedaqoji eksperiment tədqiqatda irəli sürülmüş fərziyyə və müddəaların necə nəticə verəcəyini sınaqdan keçirmək məqsədi ilə keçirilmişdir.

Eksperiment üç mərhələdə Bakı şəhəri Nizami rayonu 264 saylı, Xətai rayonu 240, 250, 257 saylı, Bərdə şəhər 7 saylı və Horadiz şəhər 2 saylı körpələr evi-uşaq bağçalarında aparılmışdır.

Birinci mərhələdə məktəbəqədər yaşlı uşaqlarda davranış mədəniyyətinin formalaşdırılmasının yolları araşdrımış, pedaqoji və metodik ədəbiyyatlar təhlil olunmuş, sorğular ke-çirilmiş və fiziki mədəniyyət məşğələlərində mövcud vəziyyət öyrənilmişdir. Tədqiqatın ümumi əsaslarının: məqsədin, obyektin, predmetin və fərziyyələrin dəqiqləşdirilməsi məqsədi ilə müəyyənedici eksperiment qoyulmuşdur.

İkinci mərhələdə fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının effektivliyinin yüksəldilməsi məqsədi ilə innovativ mərhələlərlə təşkil olunmuş idmanyönümlü didaktik oyunlarla hazırlanmış metodika üzrə öyrədici iş aparılmışdır.

Üçüncü mərhələdə tətbiq edilmiş idmanyönümlü didaktik oyunların elmi-metodik təhlili aparılmış, əldə olunmuş nəticələr əvvəlki mərhələlərlə müqayisə edilmiş, fiziki mədəniyyət məşğələlərində davranış mədəniyyətinin formalaşdırılmasının səmərəli təşkili üçün təklif olunan innovativ didaktik əsasların, idmanyönümlü didaktik oyunların səmərəliliyi, nəticəyönümlüyü təsdiq edilmişdir. Tədqiqatın eskperimental materialları ümumiləşdirilmiş, alınmış nəticələr formalaşdırılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqlarda davranış mədəniyyətinin formalaşdırılmasının mahiyyəti və əhəmiyyəti;

- fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının didaktik əsasları;

- fiziki mədəniyyət məşğələlərində davranış mədəniyyətinin şəxsiyyətyönümlü və nəticəyönümlü prinsiplər əsasında formalaşdırılmasına dair verilmiş innovativ əsaslı idmanyönümlü didaktik oyunların texnologiyaları.

**Tədqiqatın elmi yeniliyini** interaktiv təlim mərhələləri ilə təşkil olunmuş fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılması üzrə işin didaktik əsasları, idmanyönümlü didaktik oyunların təşkili, müəyyənləşdirilmiş problemlə bağlı tərbiyəçi-müəllim-valideyn əməkdaşlığının innovativ yolları, prinsiplər təşkil edir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Problemin elmi-metodik cəhətdən əsaslandırılmış eksperimental ideyaları, fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının didaktik əsasları, habelə, davranış mədəniyyətinin formalaşdırılmasının innovativ texnologiyaları tədqiqatın nəzəri əhəmiyyətini təşkil edir.

Tədqiqatın praktik əhəmiyyətini isə tədqiqatdan alınan nəticələrin respublikada fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllim və metodistlərinin fəaliyyətində, eyni zamanda, proqramların təkmilləşdirilməsində, metodik ədəbiyyat--ların işlənməsində, məşğələlər üçün vəsaitlərin tərtibində, ali məktəb müəllimləri və tələbələrinin mühazirə və seminar məşğələlərində, Məktəbəqədər təhsilin proqramı (kurikulumu) (3-6 yaş) üzrə təşkil olunmuş təlimlərdə tətbiqi təşkil edir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları elmi-praktik konfrans və seminarlarda, məruzə və çıxışlarda, 11 jurnal və 6 konfrans materialında öz əksini tapmışdır. Tədqiqatın nəticələri həmçinin, bir təlimçi kimi məktəbəqədər təhsil müəssisəsi rəhbərləri, metodistləri, tərbiyəçi-müəllimləri ilə keçirdiyimiz təlim kurslarında səslənmiş, eyni zamanda, hazırladığım "Şeir və tapmaca çələngi (1-6 yaşlı uşaqlar üçün vəsait)" və "Şirin balalara oyun hədiyyəm" adlı metodik vəsaitdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsilin pedaqogikası kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiyanın giriş hissəsi 9 səhifə, 17638 işarə; birinci fəsil 52 səhifə, 96512 işarə; ikinci fəsil 78 səhifə, 13939 işarə; nəticə 4 səhifə, 8155 işarə; istifadə edilmiş ədəbiyyat siyahısı 13 səhifə, 19136 işarə olmaqla dissertasiyanın ümumi həcmi 158 səhifə, 285 738 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi verilmişdir.

Dissertasiyanın **"Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılması üzrə işin elmi-nəzəri məsələləri"** adlanan birinci fəsli dörd paraqrafdan ibarətdir. Birinci fəslin **"*Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının mahiyyəti, məzmunu, vəzifələri, prinsipləri, üsul və vasitələri*"** adlanan birinci paraqrafında göstərilir ki, insanın davranışı onun mədəni inkişaf səviyyəsindən asılıdır. "*Mədəniyyət – insanın və cəmiyyətin inkişafının müasir səviyyəsi, insanın yaratdığı və nəsildən nəsilə ötürdüyü maddi və mənəvi dəyərlərdir*"[7].

Araşdırmalar göstərir ki, ayrı-ayrı tədqiqatçılar müxtəlif zamanlarda davranışın mahiyyətini aydınlaşdırmış və bu barədə maraqlı fikirlər söyləmişlər.

Azərbaycanda professorlar Ə.Ş.Həşimov və F.B.Sadıqov tərəfindən 1993-cü ildə hazırlanmış "Azərbaycan xalq pedaqogikası" dərsliyində, professorlar N.M.Kazımov və Ə.Ş.Həşimov tərəfindən hazırlanaraq, 1996-cı ildə dərc olunmuş "Pedaqogika" adlı dərs və-

---

[7] https://az.wikipedia.org/wiki

saitində, prof. A.M.Həsənov tərəfindən 2000-ci ildə hazırlanmış "Məktəbəqədər pedaqogika" adlı dərs vəsaitində, prof. N.M.Kazımov tərəfindən 2006-cı ildə hazırlanmış "Ali məktəb pedaqogikası" dərs vəsaitində, professorlar Ə.X.Paşayev və F.A.Rüstəmovun 2007-ci ildə çapdan çıxmış "Pedaqogika" dərsliyində və s. müəlliflərin hamısı əxlaq tərbiyəsi bölməsində davranış mədəniyyəti anlayışı və onun tətbiqi üsullarının kiçik həcmdə izahını verirlər. Sadalanan pedaqoji ədəbiyyatlarda davranış mədəniyyətinin mahiyyəti, məzmunu ilə bağlı fəsil və ya paraqraf isə yoxdur.

Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının səmərəli təşkili üçün aşağıdakı vəzifələri müəyyənləşdirmək olar:

- uşaqların davranış mədəniyyətinin formalaşdırılmasına valideyn və tərbiyəçi-müəllimin nəzarətinin gücləndirilməsi, bu barədə müəyyən biliklərin və izahatların verilməsi; davranışla bağlı verilən biliklərin uşaqların gündəlik fəaliyyətində bacarıqlar formasında nümayişinə çalışmaq; uşaqlarda qeyri-etik normalarının aradan qaldırılması üçün tədbirlər müəyyənləşdirmək; uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının səmərəliliyinə nail olmaq üçün valideyn və tərbiyəçi-müəllimin öz davranışına nəzarəti artırması.

Bütün bu kimi səbəblər məktəbəqədər təhsil müəssisələrində uşaqlara mədəni davranış qaydalarının konkter nümunə və tapşırıqlarla sistemli şəkildə mənimsədilməsini mühüm pedaqoji prinsip kimi qarşıya qoyur.

Birinci fəslin ***"Problemin pedaqoji-metodik ədəbiyyatda qoyuluşu"*** adlanan ikinci paraqrafında göstərilir ki, tədqiqat işlərində, pedaqoji ədəbiyyatlarda, metodik vəsaitlərdə davranış mədəniyyəti anlayışı, onun mahiyyəti, məzmunu, vəzifələri, öyrədilməsi metodları və s. birmənalı deyil. Belə ki, davranış mədəniyyətinin formalaşdırılması ilə bağlı pedaqoqların və psixoloqların tədqiqatlarında bir sıra fərqlər vardır. Klassik və müasir ədəbiyyatlarda həm məktəb, həm də məktəbəqədər təhsil pilləsi ilə bağlı verilmiş davranış mədəniyyəti, onların parametrlərindəki mahiyyətcə eyni, məzmunca müxtəlif qaydalar və onlara verilən tələblər davranış mədəniyyətinin formalaşdırılmasında fərqli yanaşmaları göstərir.

Dosent S.H.Həsənova kiçikyaşlı məktəblilərin davranış mədəniyyətinin tərbiyəsi, onun imkan və yolları məsələlərini tədqiq etmişdir. O, tədqiqatında Azərbaycan mütəfəkkirlərinin şifahi və yazılı sənət abidələrində davranış məsələlərini araşdıraraq, "Dədə Qorqud" dastanından, Zərdüşt və Bəhmənyardan, Q.Təbrizi, X.Şirvani, N.Gəncəvi, M.Füzuli və b. daxil olmaqla müasirlərimizə qədər demək olar ki, bir çox tədqiqatçıların, professorlardan A.M.Yusifzadənin, M.Ə.Muradxanovun, Ə.Y.Seyidovun, Ə.Ş.Həşimovun, Z.B.Göyüşovun, Y.Ş.Kərimovun, Ə.A.Ağayevin və s., eyni zamanda rus pedaqoqlarından Q.U.Şukinanın, Y.Vuçkovanın, B.B.Buşelevanın və s. əxlaq tərbiyəsi, davranış mədəniyyəti barədə fikirlərini araşdırmış və bunları tədqiqatda geniş işıqlandırmış, məktəblilərin davranışının formalaşdırılması yollarını işləmişdir[8].

Professorlar Ə.Əlizadə və A.N.Abbasov uşaqların davranışının formalaşdırılmasını ailədə valideynlərin bir-birinə olan münasibətlərində görürlər. Onlar, eyni zamanda valideynlərin bir-birlərinə rəğbət bəsləməsi, hörmət etməsi, valideyn-övlad münasibətlərində müsbət psixoloji təsir üsullarının uşaqların davranış mədəniyyətinin formalaşdırılmasına təsiri məsələləri üzərində dayanırlar[9].

1998-ci ildə "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"nda tərbiyə işləri uşaqların psixoloji inkişafı, ünsiyyəti və s. və qruplarda tərbiyə işinin təşkili zamanı qarşıya qoyulmuş vəzifələr, gün rejimi, uşaqların sağlamlığı və fiziki inkişafı, oyun növləri, davranış qaydaları, mədəni-gigiyenik vərdişlər, pedaqoji tələblər və prinsiplər konkret göstərilmişdir[10].

Lakin zamanın dəyişən tələbləri və təhsilin inteqrativ xarakter daşıması 1998-ci il proqramının bugünkü müasir tələblərə cavab vermədiyini göstərdi. Bu səbəbdən Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10 iyul 2012-ci il 1329 nömrəli əmri ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kuri-

---

[8] Həsənova S.H. Kiçik yaşlı məktəblilərin davranış mədəniyyəti tərbiyəsi üzrə işin imkanları və yolları: Ped. elm. nam. ...dis. Bakı,1991, 157 s.

[9] Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə (IX siniflər üçün dərslik) Bakı: Maarif, 1989, 276 s.

[10] Nəzərov A.M. Məktəbəqədər pedaqogika fənni üzrə proqram. Bakı: ADPU-nun nəşriyyatı, 2013, 55 s. (səh. 18)

kulumu) (3-6 yaş)" hazırlanmışdır. 11 aprel 2022-ci il tarixində Təhsil Nazirliyinin F-181 nömrəli əmri ilə "Məktəbəqədər təhsil proqramının (kurikulumun) təkmilləşdirilmiş forması təsdiq olunmuşdur. Dörd inkişaf sahəsi əsasında məktəbəqədər yaşlı uşaqların intellektinin yüksəlməsinə xidmət edən innovativ proqramda 3-6 yaş dövrlərini əhatə edən orta, böyük və məktəbəhazırlıq qrupları üzrə verilmiş məzmun uşaqların əqli və fiziki inkişafının yüksəldilməsini, davranış mədəniyyətinin formalaşdırılmasını inteqrativ şəkildə təmin edir.

Problemlə bağlı aparılan araşdırmalar, ədəbiyyat təhlilləri göstərdi ki, problemlə bağlı dərsliklər, metodik vəsaitlər, tövsiyələr, kitablar, kitabçalar çap olunmuş, bir neçə dissertasiya işləri də yazılmışdır. Lakin bu əsərlərin bir çox qismi şagidrlərin əxlaq və davranışını, müəyyən qismi isə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişafını əhatə edir. Qeyd etmək lazımdır ki, bütün pedaqoji ədəbiyyatlarda davranış mədəniyyəti anlayışı, onun mahiyyəti konkret, məzmunlu izah edilmir və məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının məzmunu ilə bağlı xüsusi vəsait, yaxud dərsliklərdə xüsusi paraqraf və ya bölmə yoxdur. Beləliklə, ədəbiyyat təhlillərinin nəticələri göstərir ki, məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılması məqsədi ilə bu sahədə lazımi metodik vəsaitlərin hazırlanmasına ciddi ehtiyac vardır.

***"Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının Məktəbəqədər təhsil proqramında (kurikulumda) qoyuluşu"*** adlanan üçüncü paraqrafda göstərilir ki, Məktəbəqədər təhsil proqramı (kurikulumu) Azərbaycan Respublikasının təhsil nazirinin 11 aprel 2022-ci il tarixli, F-181 nömrəli əmri ilə təsdiq olunmuşdur və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08 avqust 2019-cu il tarixli, 351 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı"nın 5.4. bəndinə əsasən "*məktəbəqədər təhsilin tədris bazasına daxil olan"* proqram respublika-mızdakı bütün məktəbəqədər təhsil müəssisələrinə şamil olunur*".*[11]

[11] http://e-qanun.az/framework/43192

Proqramın məzmununa əsasən məktəbəqədər yaşlı uşaqların ümumi inkişafı dörd inkişaf sahəsi üzrə aparılır:

1. Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik inkişaf sahəsi məktəbəqədər yaşlı uşaqların sağlamlığının qorunmasının, təhlükəsiz şəraitdə necə hərəkət etmələri haqqında ilkin təsəvvürlərə yiyələnmələrinin, böyük və kiçik motor bacarıqlarının, ictimai yerlərdə mədəni davranma, gigiyenik və özünəxidmət bacarıqlarının və s. inkişafına xidmət edir.

İdrakın inkişafı sahəsi məktəbəqədər yaşlı uşaqlarda sadə nitq mədəniyyətinə yiyələnmə, kommunikativ münasibətlər qurma, əşya və hadisələrin adlarını, əlamətlərini söyləmə, təhlil və ümumiləşdirmə aparma və s. bacarıqlar formalaşdırmaqla, davranışının inkişafını tənzimləyir.

Estetik və yaradıcı inkişaf sahəsi isə uşaqlarda ətraf aləmin gözəlliyini duyaraq, elementar bədii nümunələrini yaratmaq kimi bacarıqların formalaşmasına xidmət edir.

Sosial-emosional inkişaf sahəsi isə uşaqların davranışında dostluq, qayğıkeşlik, qarşılıqlı yardım, güzəştə getmək və s. kimi mənəvi keyfiyyətlərin formalaşdırılmasına xidmət edir.

***"Məktəbəqədər təhsil müəssisələrində problem baxımından mövcud vəziyyətin təhlili"*** adlanan dördüncü paraqrafda isə uşaqların davranış mədəniyyətinin formalaşdırılması və inkişafı ilə bağlı uşaq bağçalarında vəziyyətin təhlili və nəticələrindən danışılır. Fiziki mədəniyyət məşğələlərində vəziyyəti öyrənərkən Bakı şəhəri Nizami rayonu 264, Xətai rayonu 240, 250, 257, Bərdə şəhər 4, 7, Horadiz şəhər 2, Lənkəran şəhər 12, 17 saylı körpələr evi-uşaq bağçalarının və kənd uşaq bağçalarının orta, böyük və məktəbəhazırlıq qrup-larında 116 nəfər tərbiyəçi-müəllimlə, 170 nəfər valideynlə və 440 nəfər uşaqla sorğular keçirilmişdir. 116 nəfər tərbiyəçi-müəllimin cavablarının təhlilindən alınan nəticələr cədvəldə əks olunmuşdur:

**Cədvəl 1.4.1**

| № | Suallar | Cavablar | Tərbiyəçi-müəllimlərin cavabları |
|---|---|---|---|
| 1. | Fiziki mədəniyyət məşğə--lələrində məktəbəqədər yaşlı uşaqlarla didaktik oyunların keçirilməsini zəruri sayırsınız? | - bəli | 106 (91,3%) |
| | | - xeyr | 2 ( 1,8 %) |
| | | - hərdən lazımdır | 8 (6,9%) |
| 2. | Didaktik oyunların hansı növlərindən istifadə edirsiniz? | -oyuncaqlarla oyunlar | 100 (100%) |
| | | stolüstü çap oyunları:<br>- “Şəkli yığ” | 25 (21,5%) |
| | | - “Tayını tap” | 21 (18,1%) |
| | | - “İdman növünü tap” | 16 ( 13,7%) |
| | | şifahi oyunlar | 97 ( 83,6%) |
| 3. | Fiziki mədəniyyət üzrə didaktik oyunların əhəmiy-yəti nədir? | - təfəkkürün - inkişafına kömək edir; | 79 ( 68,1%) |
| | | - əqli inkişafla yanaşı, uşaqların fiziki inkişafını da təmin edir. | 37 (31,9 %) |
| 4. | Fiziki mədəniyyət məşğələ--lərində uşaqların davranış mədəniyyətinin inkişafı məqsədi ilə idmanyönümlü didaktik oyunların keçiril-məsinə ehtiyac duyursunuz? | a) -bəli; | 81 (69,8%) |
| | | b) -xeyr; | 2 (1,7 %) |
| | | c) -bəzən; | 7 ( 6,1 %) |
| | | - müntəzəm. | 26 (22,4 %) |

Nəticələrdən göründüyü kimi tərbiyəçi-müəllimlərin əksəriyyəti fiziki mədəniyyət məşğələlərində idmanyönümlü didaktik oyunların keçirilməsini zəruri saydıqlarını qeyd etmişlər.

Problemlə bağlı 170 nəfərdən ibarət valideynlə keçirilmiş sorğunun nəticələrinə nəzər salaq:

**Cədvəl 1.4.2**

| № | Suallar | Cavablar | Valideynlərin cavabları |
|---|---|---|---|
| 1. | Ailədə uşağın maraq və istəklərini nəzərə alırsınız? | - bəli | 81 (47,7%) |
| | | - xeyr | 71 (41,8%) |
| | | - bəzi hallarda | 18 (10,5%) |
| 2. | Uşaq evdə kiminlə oynayır? | -bacısı ilə oynayır | 42 (24,8%) |
| | | -qardaşı ilə oynayır | 40 (23,6%) |
| | | - anası ilə oynayır | 24 (14,1%) |
| | | - atası ilə oynayır | 18 (10,5%) |
| | | - ailənin başqa üzvləri ilə oynayır | 46 (27%) |
| 3. | Uşaqla daha çox hansı oyunları oynayırsınız? | -domino | 23 (13,5%) |
| | | - dama | 17 (10%) |
| | | -pazllar yığmaq | 35 (20,5%) |
| | | -kubiklər quraşdırmaq | 20 (11,8%) |
| | | - oyuncaqlarla | 50 (29,4%) |
| | | -topla oyun | 38 (22,3%) |
| 4. | Övladınız ailə üzvləri ilə ünsiyyətdə olmağı xoşlayır? | -xoşlayır | 69 (40,5%) |
| | | - bəzən ünsiyyətə girir | 71 (41,8%) |
| | | -özünəqapanandır | 30 (17,7%) |

**Cədvəl 1.4.2-nin ardı**

| | | | |
|---|---|---|---|
| 5. | Uşağınız oyun zamanı oynadığı insanlarla necə davranır? | asan dil tapır, mübahisə etmir | 63 (37,5%) |
| | | tez-tez mübahisə edir | 49 (27,6%) |
| | | inciklik olan-da üzr istəyir | 43 (25,2%) |
| | | küsəyəndir | 15 (8,8%) |
| 6. | Uşağınızın oyuna ma-rağı hansı səviyyədə-dir? | -həvəslə oynayır | 60 (35,2%) |
| | | -oyuna marağı azdır | 30 (17,7%) |
| | | -quraşdırmanı xoşlayır | 20 (11,8%) |
| | | -hərəkətli oyunlarda fəaldır | 60 (35,3%) |

Sorğunun nəticələri valideynlərin əksəriyyətinin övladlarının istəklərini nəzərə almadıqlarını, onlarla az ünsiyyətdə olduqlarını, az sayda valideynlərin övladları ilə oynadıqlarını, uşaqların çoxunun hərəkətli oyunlarda fəal olduqlarını, idmanyönümlü didaktik oyunlara ailədə bir o qədər yer verilmədiyini, uşaqların maraqlarının ailədə planşetə, kompüterə və sensor telefonlardakı oyunlara, televizordakı verilişlərə yönəldiyini və s. göstərmişdir.

Orta, böyük və məktəbəhazırlıq qruplarında uşaqlarla keçirilən diaqnostik sorğuların cavablarının səviyyələr üzrə təhlilləri isə dissertasiyadakı 1.4.3, 1.4.4 və 1.4.5 cədvəllərinə əsasən ümumi şəkildə aşağıdakı göstəricilərlə nəticələnmişdir:

**Diaqram 1.4.3**




**Diaqram 1.4.4**



**Diaqram 1.4.5**




Uşaqların cavablarının yaşlar üzrə ümumi nəticələri onların əksəriyyətinin ünsiyyətlərində nitq etiketlərindən az istifadə etdiklərini, yoldaşları ilə qarşılıqlı əməkdaşlığı düzgün təşkil etmədiklərini, tək oynamağa üstünlük verdiklərini, özünəxidmət və gigiyena qaydalarına az sayda uşaqların əməl etdikərini və s. göstərmişdir.

Vəziyyətlə tanışlıq belə qənaətə gəlməyimizə əsas verir ki, məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində problemlə bağlı bugünkü vəziyyət innovativ tələblərə cavab vermir. Səbəb isə bu sahədə metodikanın işlənməməsidir ki, bu da tərbiyəçi-müəllimlərin məşğələdə bu məsələyə az diqqət yetirmələri, uşaqların davranış mədəniyyəti ilə bağlı biliklərini bacarıqlarında nümayiş etdirmələrinə ciddi yanaşmamalarında və s. özünü göstərir.

İkinci fəsil **"Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılması üzrə işin didaktik yollarla təşkilinin praktik məsələləri"** adlanır və dörd paraqrafdan ibarətdir. İkinci fəslin ***"Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının və inkişafının yeni texnologiyalarla təşkili"*** adlanan birinci paraqrafında fiziki mədəniyyət məşğələlərinin interaktiv təlim texnologiyaları ilə təşkili, fiziki mədəniyyət məşğələsinin cari planlaşdırılması aşağıdakı göstəricilərlə qeyd olunur:

-“*Standart; Mövzu; Məqsəd; İnteqrasiya; İş forması; İş üsulu; Resurslar*”[12]. Burada reallaşdırılması nəzərdə tutulan alt standartların seçilməsi mövzuyla bağlı məqsədlərin çıxarılması, digər inkişaf sahələri ilə inteqrasiya, iş forması və iş üsullarının müəyyənləşdirilməsi, istifadə olunacaq resursların ardıcıllıqla tərtibi üçün əsas vasitədir. Standartların reallaşdırılmasına xidmət edən interaktiv fiziki mədəniyyət məşğələsi orta və böyük qruplarda aşağıdakı mərhələlərlə keçirilir:

- “I Giriş hissə; II hissə: Ümuminkişafetdirici hərəkətlər; III hissə”[13].

Məktəbəqədər təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında isə interaktiv fiziki mədəniyyət məşğələsi aşağıdakı mərhələlərdən ibarətdir:

-“I. İsinmə hərəkətləri; II. Ümuminkişafetdirici hərəkətlər; III. Sakitləşdirici hərəkətlər”[14].

Məşğələdə uşaqlar öz bacarıqlarını “Fərdi iş”, “Cütlərlə iş”, “Qruplarla iş” və “Kollektiv iş” formalarında asanlıqla nümayiş etdirirlər.

***“Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasında oyunlardan istifadənin yolları və* i*dmanyönümlü didaktik oyunların təşkili*”** adlanan ikici paraqrafda oyunun uşaqların həyatının əsasını təşkil etməsi, onların ümumi inkişafında mühüm əhəmiyyət daşıması, uşaqların fiziki inkişafına, sağlamlığına, davranış tərzinə təsir edərək, onlarda yoldaşlıq və dostluq, düzlük, doğruçuluq, kollektivçilik, məsuliyyətlilik, səbr, intizamlılıq, birlikdə uğur qazanmaq və s. kimi əxlaqi keyfiyyətlər formalaşdırması qeyd edilir. Məktəbəqədər yaş dövrü üçün oyunlar iki qrupa bölünür:

- yaradıcı oyunlar; qaydalı oyunlar.

---

[12] Məktəbəqədər təhsil proqramı (kurikulumu). Bakı: 2022, s. 44. https://edu.gov.az/uploads/emre-elave/2022/mektebeqeder tehsil_proqrami - kurikulum.pdf

[13] Cəfərova L.K. Uşaq bağçasının böyük qrupunda fiziki mədəniyyət üzrə işin təşkili / M.İsmayılova. Bakı: Çaşıoğlu, 2009, s. 15.

[14] Cəfərova L.K. Məktəbə hazırlaşırıq (metodik vəsait, 1-ci və 2-ci kitablar üzrə) / K.Salayev, Ü.Nurullayeva, Ş.Quliyeva. Bakı: Çaşıoğlu, -2019. s. 10.

Yaradıcı oyunları uşaqlar ətraf aləmdə gördükləri hadisələrə uyğun olaraq özləri yaradırlar.

Qaydalı oyunlar isə uşaqların həyatına böyüklər tərəfindən gətirilir. Qaydalı oyunlar iki növə ayrılır:

- mütəhərrik oyunlar; didaktik oyunlar.

Mütəhərrik oyunlar əsrlər boyu xalq tərəfindən yaradılmış milli hərəki oyunlardır.

Didaktik oyunlar isə oyun iştirakçılarının qarşısına müəyyən əqli vəzifələr qoyur. Oyuncaqlarla, stolüstü çap oyunları və şifahi oyun növlərinə bölünən didaktik oyunların fiziki mədəniyyət məşğələlərində təşkili zamanı mövzuyla bağlı verilmiş idman avadanlıqlarının cüt şəkillərini, oyuncaqlarını növünə, rənginə və s. görə tapıb, qruplaşdırmaq, adlandırmaq, şifahi oyunlar zamanı sağlamlıqla, təmizliklə bağlı və s. söylənilən tapmacaları tapmaq, davranış mədəniyyəti ilə bağlı müxtəlif mövzularda söhbətlər keçirmək və s. uşaqların davranış mədəniyyətinin formalaşdırılmasında mühüm rol oynayır.

Təcrübələr göstərir ki, hazırda məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşmasında idmanyönümlü didaktik oyunların keçirilməsinə böyük ehtiyac vardır.

Qeyd etmək lazımdır ki, məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin inkişafına didaktik oyuncaqların da böyük təsiri vardır. Uşağın “oyun yoldaşı”, “sevimlisi” olan bir-birindən fərqlənən didaktik oyuncaqlar uşaqların mövzu ilə bağlı biliklərə yiyələnməsində ən mühüm vasitədir. Fiziki mədəniyyət məşğələlərində idman növlərinə, avadanlıqlarına aid didaktik oyuncaqlarla, şəkillərlə və s. keçirilən idmanyönümlü didaktik oyunların uşaqların davranış mədəniyyətinin formalaşmasına təsiri təcrübədə bir daha özünü göstərdi. Bununla bağlı eksperimental qruplarda keçirilən fiziki mədəniyyət məşğələlərindən birində, məsələn, Xətai rayon 240 saylı körpələr evi-uşaq bağçasının orta qrupunun məşğələsində tərbiyəçi-müəllim Validə Qədirovanın “Təmizkarlıq sağlamlıqdır” mövzusunda keçirdiyi didaktik oyun zamanı uşaqların təmizliklə bağlı nümayiş etdirdikləri səhnəcik, tərbiyəçi-müəllimin təmizliyə aid söylədiyi tapmacaları uşaqların mimika və jestlərlə təkrarlamaları və tapmacaları cavablandırmaları, tərbiyəçi-müəllimin uşaqlara bugünkü mövzu

barədə evdə valideynlərinə danışmalarını tövsiyə etməsi və s. uşaqlarda yüksək əhval-ruhiyyə yaradaraq, onların təmizliyə aid elementar bilik və bacarıqlara yiyələnmələrinə, eyni zamanda, bu davranış kriteriyalarının uşaqların bacarıqlarında kompetensiyaya çevrilməsi işində valideynlərin tərbiyəçi-müəllimlə müntəzəm əməkdaşlığına zəmin yaratdı və s.

***“Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasında təbiyəçi-müəllim və valideynlərin rolu”*** adlanan üçüncü paraqrafda göstərilir ki, ailədə uşaqların davranış mədəniyyətini formalaşdıran əsas tələblərdən biri uşaqların ailənin digər üzvləri ilə mütəmadi əməkdaşlığı və ailə üzvlərinin, valideynlərin bir-biri ilə nümunəvi davranışıdır. Eyni zamanda, ailədə uşaqların davranış mədəniyyətinin inkişafı özünü didaktik oyun növlərinin keçirilməsin zamanı daha aydın göstərir. Belə ki, valideynlərin uşaqlarla sanitar-gigiyenik qaydalara, rejimə, sağlamlığa aid və s. idmanyönümlü didaktik oyunlar keçirilmələri uşaqların davranış mədəniyyətinin inkişafına böyük təkan verir.

İkinci fəslin ***“Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasına dair təcrübi-eksperimental işlərin məzmunu və nəticələri”*** adlanan dördüncü paraqrafında tədqiqatın məqsəd və vəzifələri ilə əlaqədar eksperimentin məzmunu müəyyən edilmişdir. Eksperimentin məqsədi məktəbəqədər yaşlı uşaqların fiziki mədəniyyət məşğələlərində davranış mədəniyyətinin formalaşdırılmasına idmanyönümlü didaktik oyunların effektli təsirinin aşkar edilməsindən ibarət olmuşdur.

Eskperiment aşağıda göstərilən vəzifələrin həllinə yönəldilmişdir:

1. Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin diaqnostik səviyyəsinin müəyyən edilməsi və onların davranış mədəniyyətinin formalaşdırılaraq, inkişaf etdirilməsi məqsədi ilə idmanyönümlü didaktik oyunların metodikasının və interaktiv mərhələli məşğələ nümunələrinin hazırlanması.

2. Uşaqların davranış mədəniyyətinin inkişafına yönəlmiş idmanyönümlü didaktik oyun metodikasının interaktiv mərhələlərlə hazırlanmış fiziki mədəniyyət məşğələlərində praktik tətbiqi;

3. Fiziki mədəniyyət məşğələlərində idmanyönümlü didaktik oyunların uşaqların davranışına təsiri dərəcəsinin müəyyənləşdirilməsi və uşaqların idmanyönümlü didaktik oyunlar vasitəsi ilə davranış qaydalarını mənimsəmə səviyyələrinin aşkar edilməsi.

Vəzifələrin həlli üçün pedaqoji eksperimentin 3 mərhələdə aparılması müəyyənləşdirilmişdir:

Eksperimentin 1-ci mərhələsində Bakı şəhəri Nizami rayonu 264, Xətai rayonu 240, 250, 257 saylı körpələr evi-uşaq bağçaları, Bərdə şəhər 7 saylı və Horadiz şəhər 2 saylı körpələr evi-uşaq bağçalarının orta, böyük və məktəbəhazırlıq qruplarında kontrol və eksperimental qruplarda ümumilikdə 240 nəfər uşaqla sorğular keçirilmişdir.

Eksperimentin 2-ci mərhələsində uşaqların davranış mədəniyyətinin formalaşdırılmasına yönəldilmiş idmanyönümlü didaktik oyunların və innovativ strategiyalarla, interaktiv mərhələlərlə təşkil olunmuş məşğələ nümunələrinin metodikası hazırlanmış və fiziki mədəniyyət məşğələlərində tətbiq olunmuşdur.

Bakı şəhər Nizami rayonu 264 saylı, Xətai rayonu 240, 250, 257 saylı, Bərdə şəhər 7 saylı və Horadiz şəhər 2 saylı körpələr evi-uşaq bağçalarının orta, böyük və məktəbəhazırlıq eksperimental qruplarında ümumi 120 nəfər uşaqla aparılmış summativ xarakterli işin nəticələri eksperimentin 3-cü mərhələsində aparılan müşahidələr və sorğular əsasında təhlil edilmiş və kontrol qruplardakı 120 nəfər uşağın müqayisə xarakterli nəticələri ilə dissertasiyadakı 2.4.1-2.4.23-cü diaqramadək əks olunmuşdur. Eksperimental qrupların summativ xarakterli nəticələri məzmun standartları əsasında hər yaş qrupu üzrə hazırlanmış meyarlarla təhlil edilərək qiymətləndirilmişdir və eksperimentin 3-cü mərhələsində nəticələr yüksək, orta və aşağı səviyyələrlə dəyərləndirilmişdir:

**Diaqram 2.4.24**

Orta qrupların nəticələrinin təhlillərinə nəzər salaq:




**Diaqram 2.4.25**

Böyük qrupların nəticələrinin təhlillərinə nəzər salaq:




**Diaqram 2.4.26**

Məktəbəhazırlıq qruplarının nəticələrinin təhlillərinə nəzər salaq:



Beləliklə, pedaqoji eksperimentin 3-cü mərhələsinin nəticələrinin təhlili göstərdi ki, fiziki mədəniyyət məşğələlərində idmanyönümlü didaktik oyunlar vasitəsilə davranış mədəniyyətinin formalaşdırılması dərəcəsi orta qruplarda bir çox uşaqda orta səviyyədə, böyük və məktəbəhazırlıq qruplarında isə yüksək səviyyədə olmuşdur.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

Elmi və metodik ədəbiyyatların, yerinə yetirilmiş praktik, eksperimental işlərin təhlili göstərdi ki, məktəbəqədər təhsil müəssisələrində fiziki mədəniyyət məşğələlərində uşaqların davranış mədəniyyətinin inkişafı üzrə iş müasir tələblərə cavab verən səviyyədə keçirilmir. Bununla bağlı aparılmış tədqiqat aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir:

1. Psixoloji-pedaqoji ədəbiyyatın təhlili nəticəsində müəyyən edil-mişdir ki, məktəbəqədər təhsilin metodikasında fiziki mədəniyyət məşğələlərində uşaqların davranış mədəniyyətinin formalaşdırılması məqsədi ilə idmanyönümlü didaktik oyunların vahid təlim-edici kompleksi işlənilməmişdir[15].

2. İnnovativ əsaslı fiziki mədəniyyət məşğələlərində uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının analitik təhlilinə, onun inkişaf səviyyəsinin öyrənilməsinə, məzmunun yeniləşdirilərək, didaktik əsaslarla tətbiqinə uşaqların davranış mədəniyyətinin inkişafına yönəldilmiş zəruri nüanslar kimi baxmaq olar [16].

3. Respublikamızda 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması, eləcə də məktəbəqədər təhsil müəssisələrində təbiətin qorunmasdı ilə bağlı keçirilən layihələr, tədbirlər uşaqların ekoloji mədəniyyətinin formalaşmasında xüsusi əhəmiyyət kəsb edir. Bu proseslərdə uşaqların təbiətin qorunması ilə bağlı yiyələndikləri bilikləri həm uşaq bağçasında, həm də ailədə davamlı olaraq praktikaya tətbiq etmələri ekoloji davranış normalarının uşaqların

---

[15] Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasında didaktik oyunların rolu // - Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, - 2020 (42). C. 11, № 2, - s. 91.

[16] Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasında didaktik oyunların rolu // - Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, - 2020 (42). C. 11, № 2, - s. 91.

bacarıqlarında möhkəmlənərək, səritəyə çevrilməsinə zəmin yaradır [17].

4. Təcrübə göstərir ki, fiziki mədəniyyət məşğələsinin interaktiv mərhələlər, yeni təlim texnologiyaları, idmanyönümlü didaktik oyunlar və s. kimi innovasiyalarla təşkili davranış mədəniyyətinin komponentlərinin inteqrativliyini təmin etməklə, məşğələdə uşaqların davranış bacarıqlarına asanlıqla yiyələnmələrinə geniş imkan yaradır[18]

5. Müxtəlif didaktik prinsiplərlə, üsullarla təşkil olunan fiziki mədəniyyət məşğələlərində idmanyönümlü didaktik oyunların müxtəlif növlərinin (əşyalarla – oyuncaqlarla, stolüstü-çap və şifahi) keçirilməsi zamanı uşaqların yoldaşları ilə birgə fəaliyyət prosesində idman avadanlıqlarına aid cüt şəkilləri seçib, birləşdirmələri, onların adlarını sadalamaları, rənglərinə görə fərqləndirmələri, sağlamlıqla, təmizliklə bağlı tapmacalar söyləmələri, sualları cavablandırmaları, epizodik rollarla müxtəlif obrazları canlandırmaları və s. onların yoldaşlarına, tərbiyəçi-müəllimə və ətrafdakı insanlara qarşı rəftarında, davranış mədəniyyətlərinin formalaşmasında böyük rol oynayır.[19]

6. Müəyyən edilmişdir ki, məktəbəqədər yaşlı uşaqların davra-nış mədəniyyətinin və şəxsiyyətlərinin fomalaşdırılmasında sözlü təsirdən çox, davranışın nümünələrinin nümayişi daha effektlidir. Bu baxımdan, hər bir valideyn və tərbiyəçi-müəllim öz davranışına ciddi nəzarət etməli, uşaqlarla və ətrafdakı digər insanlarla münasibətlə-

---

[17]"Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar keçirilən tədbirlərin məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasına təsiri // – Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, –2024. C. 91, № 5, – s. 21.

[18] Mammadova, K.R. An innovative approach to the development of behavioral culture in preschoolers through physical education classes // Современные подходы к оптимизации процесса физического воспитания, спортивной тренировки и оздоровления населения. Сборник научных статей. XXIII Международная научно-практическая конференция, - Нижний Новгород. Изд-во ННГУ, - 28-30 ноября, - 2024, - с. 67-72. .

[19] Məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində uşaqların davranışının didaktik əsaslarla inkişaf etdirilməsi // - Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, - 2020. C.87, № 1, - s. 105.

rində yüksək əxlaqi keyfiyyətlər nümayiş etdirməlidirlər.[20]

7. Təcrübələr göstərir ki, birgə oyun fəaliyyəti uşaqlarda yoldaşlarına güzəştə getmə, paylaşma (oyuncaqlar və s.), bir-birinə qayğı göstərmə, fəaliyyətlərini qiymətləndirmə, oyunda öz növbəsini gözləmə, məsuliyyət hissi, nitq etiketlərindən istifadə etmə və s. kimi etik davranış qaydaları formalaşdırır[21]

8. Didaktik prinsiplər əsasında təşkil olunan fiziki mədəniyyət məşğələlərində idmanyönümlü didaktik oyunların tətbiqi uşaqların əqli və fiziki inkişafında təlimedici xüsusiyyətə malik olmaqla, cütlərlə, qruplarla, yaxud kollektiv iş zamanı onlarda əməkdaşlıq, yoldaşlarına qarşı humanistlik, tolerantlıq, hörmət və s. etik bacarıqları formalaşdıraraq, nümayiş etmələrinə və təkrar yolu ilə davranışlarında kompetensiyaya çevrilməsinə şərait yaradır[22].

9. Məktəbəqədər təhsil proqramının (kurikulumun) inkişaf sahələrinin orta, böyük və məktəbəhazırlıq yaş qrupları üzrə təlim standartlarında əhatə olunan davranış kriteriyaları fiziki mədəniyyət məşğələlərində ilin sonunadək müntəzəm olaraq müxtəlif fəaliyyət növlərində inteqrativ şəkildə reallaşır. Təlim standartları arasındakı bu sistemlilik və inteqrativlik təlimin məzmununun davamlı inkişafına xidmət etməklə, sosial keyfiyyətləri əks etdirən etik kriteriyaların uşaqların davranışında səriştəyə çevrilməsini təmin edir.[23]

10. Araşdırmalar zamanı tərbiyəçi-müəllimlərin fiziki mədəniyyət məşğələlərində uşaqların davranış mədəniyyətinin inkişafı ilə bağlı idmanyönümlü didaktik oyunlardan istifadə edilməsində peşəkar

---

[20] Məktəbəqədər dövrdə fiziki mədəniyyət məşğələlərinin uşaq şəxsiyyətinin inkişafına və humanist münasibətlərinin formalaşmasına təsiri // “Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı” mövzusunda Beynəlxalq elmi konfrans materialları, - Bakı: ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi, - 5-6 dekabr, - 2014, - s. 128.

[21] Мамедова, К.Р. Влияние занятий физической культурой на поведение и общее развитие детей дошкольного возраста // - Тбилиси: Межкультурные коммуникации, - 2015. № 25, - с. 216.

[22] Uşaq bağçalarında fiziki mədəniyyət məşğələlərində Azərbaycan milli-xalq və vətənpərvərliklə bağlı oyunların vasitəsi ilə davranış mədəniyyətinin formalaşdırılması // Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2016. C. 27, №3, s. 109.

[23] Məktəbəqədər təhsil müəssisələrində uşaqların sosial səriştəliliyinin formalaşdırılması texnologiyası nümunəvi davranışın şərti kimi // - Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, - 2019. C. 86, № 5, - s. 91.

hazırlıqlarının aşağı səviyyədə olması aşkar edilmiş, məşğələdə inteqrativliyin gözlənilməməsi və müasir tələblərə cavab verməməsi müəyyənləşdirilmişdir.[24]

11. Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının təhlili göstərdi ki, problemlə bağlı məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində bugünkü vəziyyət innovativ tələblərə cavab vermir. Səbəb isə məşğələdə yalnız hərəkətli oyunlara üstünlük verilərək, didaktik oyunlardan istifadə edilməməsi və bu sahədə metodikanın işlənməməsidir ki, bu da tərbiyəçi-müəllimlərin problemlə bağlı valideyn-tərbiyəçi-müəllim-uşaq münasibətlərini düzgün qura bilməmələrinə gətirib çıxarır. Bu baxımdan fiziki mədəniyyət məşğələlərində didaktik oyunların davranış mədəniyyətinin formalaşdırılmasında praktik əhəmiyyət daşıdığı qənaətinə gələrək, bu sahədə metodikanın yenidən işlənməsi problemin aktuallığının əsası kimi qarşıya qoyulur.[25]

12. Problemlə bağlı aparılan araşdırmalar göstərir ki, uşaqların şəxsi keyfiyyətləri, potensialları, hansı oyunlara maraq göstərmələri, oyun zamanı yoldaşları ilə rəftarları, ətrafdakılarla münasibətləri və s. barədə valideynlərin məlumatlarının az olmasının səbəbi uşaqların oyunlarına səthi yanaşmaları, oyun zamanı onlara nəzarət etmələridir. Valideynlər bunu evdə işlərinin çox olması səbəbindən uşağa az vaxt ayırmaları ilə əlaqələndirsələr də, təcrübələrdən göründüyü kimi, bu cür əsassız səbəblərdən uşaqların oyunu təkbaşına, nəzarətsiz oynamaları onların davranışının düzgün formalaşmamasına və davranış səviyyələrinin aşağı olmasına gətirib çıxarır[26].

13. Fiziki mədəniyyət məşğələlərində oyunların müxtəlif növlərindən istifadə zamanı Azərbaycan milli xalq oyunları, xalq nağılları personajlarından, folklor nümunələrindən istifadə edilməsi za-

---

[24] Məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində uşaqların davranışının didaktik əsaslarla inkişaf etdirilməsi // - Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, - 2020. C.87, № 1, - s. 103.

[25] Məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində uşaqların davranışının didaktik əsaslarla inkişaf etdirilməsi // - Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, - 2020. C.87 № 1, - s. 103.

[26] Oyun uşaq şəxsiyyətinin inkişafının vasitəsi kimi // - Bakı: Məktəbəqədər və ibtidai təhsil, - 2011. C. 194, №1, - s. 50-51.

manı bədii yaradıcılıq elementlərinin uşaqlarda yaratdığı estetik hisslər, mənəvi keyfiyyətlər onların davranış mədəniyyətinin formalaşmasına böyük təsir göstərir[27].

14. Tədqiqat zamanı müəyyən edilmişdir ki, fiziki mədəniyyət məşğələlərində uşaqların davranış mədəniyyətinin formalaşdırılması istiqamətində tərbiyəçi-müəllimlərin valideynlərlə qarşılıqlı əməkdaşlığı, onların bu sahədə tövsiyələrini valideylərin ailədə tətbiq etmələri, məsələ ilə bağlı valideynlərlə xüsusi seminarların, söhbətlərin, disputların təşkili uşaqların davranış mədəniyyətinin formalaşdırılması işinin uğurla nəticələnməsinə təkan verir.[28]

15. Müəyyən edilmişdir ki, məktəbəqədər yaşlı uşaqlarda tolerantlığın formalaşdırılmasında əsas fəaliyyət növü olan oyunun və əməyin mühüm rolu vardır. Oyunun, yaxud digər tədbirlərin və bayramların keçirilməsi zamanı uşaqların dünya xalqlarının ənənələri ilə daha yaxından tanış olmalarına şərait yaranır. Əmək fəaliyyəti zamanı da eyni ilə uşaqların öz müşahidələrinə əsasən mənimsədikləri qaydaları birgə fəaliyyətdə təcrübəyə tətbiq etmələrinə şərait yaranır.[29]

16. Araşdırmalar göstərir ki, fiziki mədəniyyət məşğələlərində davranış komponentlərini əks etdirən standartların inteqrativ şəkildə tətbiq olunaraq, idmanyönümlü didaktik oyunlar zamanı uşaqların bacarıqlarında reallaşması onların sərbəst fəaliyyətinə təkan verərək, davranışla bağlı mənimsədikləri yeni bilikləri bacarıqlarında nümayiş etdirmələri ilə nəticələnir. Bu isə öz növbəsində uşaqlarda nitq bacarıqları, oyun qaydalarına əməl etmə, tərbiyəçi-müəllimi və yoldaşlarını dinləmə, birgə fəaliyyət göstərmə, nizam-intizam qaydalarına əməl etmə, əşya və oyuncaqlarla düzgün davranma, onları yoldaşları

---

[27] Uşaq bağçalarında fiziki mədəniyyət məşğələlərində Azərbaycan milli-xalq və vətənpərvərliklə bağlı oyunların vasitəsi ilə davranış mədəniyyətinin formalaşdırılması // - Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, - 2016. C. 27, №3, - s. 107-111.

[28] Məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində uşaqların davranışının didaktik əsaslarla inkişaf etdirilməsi // - Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, - 2020. C.87, № 1, - s. 105.

[29] Uşaqların davranışı və tolerantlıq mədəniyyəti // - Bakı: Azərbaycan məktəbi, - 2014. C. 663, №5, - s. 64-65.

ilə paylaşma, güzəştə getmə və s. kimi davranış qaydalarının formalaşmasına zəmin yaradır. [30]

Tədqiqatla bağlı aşağıdakı **təkliflər** irəli sürülmüşdür:

1. Məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində uşaqların davranış mədəniyyətinin interaktiv və inteqrativ inkişafını təmin edən idmanyönümlü didaktik oyunlar sistemli təşkil edilməlidir.

2. Fiziki mədəniyyət məşğələlərində idmanyönümlü didaktik oyunların köməyi ilə uşaqların davranış mədəniyyətinin formalaşdırılması işinin normal təşkili üçün çap şəkilli idmanyönümlü didaktik oyun vəsaitləri (kart, cüt şəkillər formasında) nəşr olunmalıdır.

3. Məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində uşaqların davranış mədəniyyətinin inkişafına yönəldilmiş idmanyönümlü didaktik oyunların vahid təlimedici kompleksi işlənilməlidir.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı çap olunmuş elmi əsərlərində öz əksini tapmışdır:**

1. Məmmədova, K.R. Oyun uşaq şəxsiyyətinin inkişafının vasitəsi kimi.// - Bakı: Məktəbəqədər və ibtidai təhsil, - 2011. C. 194, №1, - s. 48-51.

2. Məmmədova, K.R. Məktəbəqədər dövrdə davranış mədəniyyətinin məzmunu // "Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda Respublika elmi konfransının materialları, - Bakı: Mütərcim, - 28 iyun, - 2012, - s. 181-183.

3. Məmmədova, K.R. Böyük məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin inkişafında valideyn və tərbiyəçilərin əlbir işi // - Bakı: Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, - 2012. №4, - s. 202-204.

4. Məmmədova, K.R. Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin inkişafında fiziki tərbiyənin rolu // Doktorant və gənc

[30] Formation of behavioral culture of pre-school children in interactive phased physical culture exercises organized with sports-otriented didactic games // - Ukraine (Kyiv): Bulletin of Postgraduate education. Issue 22(51) Educational Sciences Series (Category «B»), - 2022. - p. 76-77.

tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları, - Bakı: Mütərcim, - 19-20 dekabr, - 2013. C. 2, - s. 388-389.

5. Məmmədova, K.R. Gün rejiminin uşaqların davranış mədəniyyətinə və fiziki inkişafına təsiri // - Bakı: Məktəbəqədər və ibtidai təhsil, - 2014. C. 209, №4, - s. 28-31.

6. Məmmədova, K.R. Uşaqların davranışı və tolerantlıq mədəniyyəti // - Bakı: Azərbaycan məktəbi, - 2014. C. 663, №5, - s. 63-66.

7. Məmmədova, K.R. Məktəbəqədər dövrdə fiziki mədəniyyət məşğələlərinin uşaq şəxsiyyətinin inkişafına və humanist münasibətlərinin formalaşmasına təsiri // "Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı" mövzusunda Beynəlxalq elmi konfrans materialları, - Bakı: ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi, - 5-6 dekabr, - 2014, - s. 127-129.

8. Məmmədova, K.R. Ekoloji mədəniyyətin formalaşdırılması məktəbəqədər yaşlı uşaqların təbiətə olan münasibətlərinə və davranış mədəniyyətinə təsir edən amil kimi // - Bakı: Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, - 2016. C. 83, №2, - s. 211-214.

9. Məmmədova, K.R. Uşaq bağçalarında fiziki mədəniyyət məşğələlərində Azərbaycan milli-xalq və vətənpərvərliklə bağlı oyunların vasitəsi ilə davranış mədəniyyətinin formalaşdırılması // - Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, - 2016. C. 27, №3, - s. 107-111

10. Məmmədova, K.R. Fiziki mədəniyyət məşğələlərində oyunların məktəbəqədər yaşlı uşaqlarda davranış mədəniyyətinin formalaşdırılmasında rolu // "Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfrans materialları, - Naxçıvan şəhəri: Bakı: ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi, - 25 noyabr, - 2016. C. 2, - s. 93-94.

11. Məmmədova, K.R. Məktəbəqədər təhsil müəssisələrində uşaqların sosial səriştəliliyinin formalaşdırılması texnologiyası nümunəvi davranışın şərti kimi // - Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, - 2019. C. 86, № 5, - s. 89-93.

12. Məmmədova, K.R. Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin

formalaşdırılmasında didaktik oyunların rolu // - Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, - 2020. C. 11, № 2 (42), - s. 90-95.

13. Məmmədova, K.R. Məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində uşaqların davranışının didaktik əsaslarla inkişaf etdirilməsi // - Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, - 2020. C. 87, № 1, - s. 102-106.

14. Mammadova K.R. Formation of behavioral culture of pre-school children in interactive phased physical culture exercises organized with sports-otriented didactic games // - Ukraine (Kyiv): Bulletin of Postgraduate education. Issue 22(51) Educational Sciences Series (Category «B»), - 2022. - p. 76-77.

15. Mammadova, K.R. An innovative approach to the development of behavioral culture in preschoolers through physical education classes // Современные подходы к оптимизации процесса физического воспитания, спортивной тренировки и оздоровления населения. Сборник научных статей. XXIII Международная научно-практическая конференция, - Нижний Новгород. Изд-во ННГУ, - 28-30 ноября, - 2024, - с. 67-72.

16. Məmmədova, K.R. "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar keçirilən tədbirlərin məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasına təsiri // – Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, – c. 91. – 2024. № 5, – s. 17–22.

Dissertasiyanın müdafiəsi 30 may 2025-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən BFD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30 aprel 2025-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.



Çapa imzalanıb:
Kağızın formatı: 60x84 1/16
Həcm: 48258 işarə
Tiraj: 100 nüsxə